**POL STRETERN**

# SPİNOZAYLA 90 DƏQİQƏ

Tərcüməçi:

Çinarə Məhəmməd

qanun nəşriyyatı

PAUL STRATHERN

# SPINOZA IN 90 MINUTES

Yəhudi əsilli holland filosof Spinoza yeni dövr fəlsəfəsinin ən görkəmli nümayəndələrindəndir. Rasionalist və panteist filosof möhtəşəm bir metafizik sistem yaradıb. Onun fəlsəfəsi Tanrının mövcudluğunu mümkün sayır. Avropalı sufi kimi tanınan Spinoza müqəddəs insan həyatı yaşayıb. Lakin din xadimləri ona nifrət bəsləyirdi. Ölümündən sonra əsərləri yandırıldı, bu əsərləri oxuyanlar isə təqiblərə məruz qaldı.

Kitab Spinozanın həyatı və yaradıcılığı haqqında ən vacib məlumatları yığcam şəkildə təqdim edir. Qısa zamanda daha bir böyük filosofu tanımaq imkanı yaradır.

**PAUL STRATHERN SPINOZA IN 90 MINUTES**
**POL STRETERN SPİNOZAYLA 90 DƏQİQƏ**
Bakı, Qanun Nəşriyyatı, 2023, 72 səh.

Janr: non-fiction/bioqrafiya
Ölçü: 120x185 mm
Cild: yumşaq
Çapa imzalandı: 27.04.2023

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Çinarə Məhəmməd |
| Redaktor: | Nərmin Kamal |
| Korrektorlar: | Gülgəz Nur, Yeganə Kərimzadə |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Sevil Rafail |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-610-3

© Qanun nəşriyyatı, 2023
© Chicago: Ivan R.Dee, 1998 – Spinoza

Bu kitabın Azərbaycan dillinə tərcümə və yayım hüquqları “Qanun Nəşriyyatı”na məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununa ziddir.

# Giriş

Spinoza filosofların filosofudur. O, heyrətamiz dərəcədə gözəl və parlaq bir metafizik sistem yaradıb, bu sistemin nə bizi əhatə edən obyektiv gerçəkliyə, nə də subyektiv təcrübəyə əsaslanması məsələni daha da maraqlı edir. Spinoza qatı dindar olsa da, heç bir dinə sitayiş etmirdi. Onun fəlsəfəsi Tanrı ideyası ilə doludur, özü də mömin həyatı yaşayıb, bununla belə, sağlığında bütün dini təlimlərin nümayəndələri ona nifrət edib, ölümündən sonra isə əsərləri qaralanıb, zor gücünə təqib edilib və yandırılıb.

Bizim vaxtımızda filosoflardan Tanrıya inam tələb olunmur, onlar da hamı kimi günahlarla dolu bəşər həyatı yaşayırlar; bu filosofları həqiqi varlığa diqqət yetirməyə

səsləyəndə isə adətən Spinozanı nümunə göstərirlər. Hərçənd, Spinoza müqəddəs şəxs mərtəbəsinə qəbul edilsə, ziddiyyətlilik baxımından baş müqəddəs olardı.

Spinoza fəlsəfəsi hər şeyi əhatə edən bir sistemdir. Onun təlimi bir tərəfdən orta əsrlərin ierarxik əmniyyətini, digər tərəfdən Yeni Dövrdə (XVII əsr) təzəlikcə ortaya çıxan Əqlin təkbaşına həqiqətə çatmaq gücünə inamı özündə birləşdirir. Spinozanın riyazi sistemi Təbiət-Tanrının təcəssümüdür. O, sadə mülahizələrdən başlayaraq həndəsi silsiləylə artan sübutlarla həm Tanrı, həm də kainat olan bir aləm qurur. Bu, klassik panteizm nümunəsidir. Bu təlimə əsasən Tanrı və kainat eyni bir şeydir. Bu ideya bizim planetimizə vahid böyük orqanizm və ya özünütənzimləyən sistem kimi baxan müasir Gaia fərziyyəsi ilə maraqlı şəkildə səsləşir. Spinozanın sistemi müasir ekoloqların dəstəklədiyi holistik etikanın (bütün insanların birliyi və vəhdəti – tərc.) da əsasını təşkil edir. Təbiətə ziyan vurmaq Tanrıya ziyan vurmaqdır, başqasını incitməklə sən elə özünü incitmiş olursan.

Spinozanın siyasi nəzəriyyəsi də bir çox aspektlərdə dövrünü qabaqlayırdı. O düşünürdü ki, dövlətin yeganə məqsədi şəxsiyyətin maraqlarının qorunması olmlıdır. Bu zaman şəxsiyyət əqlindən istifadə edərək özünü və öz baxışlarını mükəmməlləşdirməlidir.

Spinozanın siyasi nəzəriyyəsi öz dövründən çox irəli getmişdi. O inanırdı ki, dövlətin məqsədi yalnız fərdi qorumaq olmalıdır ki, fərd özünü və fikirlərini əql işığında sərbəst inkişaf etdirə bilsin. Sistemli ilahiyyatçı yanaşması isə Spinozanın fəlsəfəsinə qəribə bir nimdaşlıq bəxş edir. Bununla belə, həmin vaxtı keçmiş sistemdən çıxardığı nəticələr, elmdən tutmuş siyasətə qədər, yeni düşüncəylə sıx bağlıdır… Əgər gözəllik həqiqət ilə üst-üstə düşsəydi, həqiqət isə gözəllik qanunlarına zidd olmasaydı, onda bizə Spinoza fəlsəfəsini bilmək kifayət edərdi ki, eyni zaman çərçivəsində həm gözəlliyi, həm də həqiqəti bilmiş olaq.

## Spinozanın həyat və yaradıcılığı

Barux (Benedikt) Spinoza 4 noyabr 1632-ci ildə Amsterdamda dünyaya gəlib. Onun əcdadları Portuqaliyanın ispan yəhudilərindəndir, adının mənşəyi İspaniyanın şimal-qərbində yerləşən Espinoza şəhərciyinin adından gəlir. Onun ailəsi xristianlığı təbliğ edən inkvizisiyadan qaçmaq və öz əcdadları kimi iudaizmə qulluq edə bilmək üçün Hollandiyaya köçmüşdü. Spinozanın atası kifayət qədər varlı tacir idi və onların böyük evləri vardı. Filosofun anası isə o, altı yaşında ikən ölmüşdü.

Filosofun uşaqlığı ailəsindəki ağır itkilərlə yadda qalıb. O, iyirmi iki yaşında ikən üç həyat yoldaşı və dörd övladını itirmiş atası dünyasını dəyişir.

Spinoza, o dövrün sıxıcı iudaizm atmosferində təhsilini alır. O, saatlarla "İncil" ("Əhdi-Ətiq") və "Talmud" oxuyurdu. İnanılmaz darıxdırıcı mühitə baxmayaraq, görünür, Spinoza təhsildən həzz alırdı və onun atası oğlunun ravvin olacağını düşünürdü. Məktəb dərslərindən başqa, gənc Spinozanı həm də latın və qədim yunan dili dərslərinə getməyə həvəsləndirirdilər.

Elə görünə bilər ki, reallıq və müasir dünya onun təhsilində, daha sonra isə fəlsəfəsində çox əhəmiyyətsiz rol oynayıb. Amma əslində Barux Spinoza mühafizəkar gənc deyildi. Müstəqil fikirli yəhudi tələbələr sərt ortodoksal qaydalardan bezməyə başlayırdılar. Onların mənəvi tələbləri qədim Asiya köçəri tayfalarının mənəvi tələblərindən çox irəli getmişdi, bunu özləri də hiss edir və İncili sorğulayırdılar. Onlar hiss edirdilər ki, artıq inkişaf etmiş mənəviyyatları təbii olaraq, tarixdən öncə köçəri insanların qarşısına qoyulan tələblərdən daha yüksəkdir. Bu səbəbdən tələbələr İncil həqiqətlərini şübhə altına alma-

ğa başladılar. Yəhudi icmasının rəhbərləri isə öz növbəsində bu tendensiyadan narahatlıq hissi keçirməyə bilməzdilər.

Əlbəttə, Hollandiya əyalətləri Avropanın Ku-Klus-Klan təfəkkürünə nisbətdə daha səbirli idi (burada qeyd etmək vacibdir ki, Ku-Klus-Klan öz geyim tərzini ispan inkviziyasından mənimsəmişdir).

Yəhudilər hələ Hollandiya vətəndaşı deyildilər və yəhudilərin İncilə hücumları Xristianlığa hücum kimi qiymətləndirilirdi.

Spinoza sinaqoq kandarından kənarda öz qeyri-ənənəvi baxışlarını yaymağa başlayanda yəhudi dini liderləri bunu təbii ki, xoş qarşılamadılar. Onun baxışlarına görə, İncilin ilk beş kitabının müəllifləri elmdə cahil olduqları kimi ilahiyyat məsələlərində də cahil olublar. Bu azmış kimi iyirmi iki yaşlı Spinoza iddia etməyə başladı ki, Tanrının bədənə malik olmasını, ruhun ölməzliyini, mələklərin mövcudluğunu sübuta yetirmək üçün İncildə heç bir dəlil yoxdur.

Spinoza çox ağıllı bir gənc idi və onunla demək olar ki, mübahisə aparmaq mümkün